*Etibar Əliyev*

# Kəngərli sülaləsinin sonuncu generalı Cəmşid xan Naxçıvanski



*Azərbaycanın məşhur hərbi xadimi, briqada komandiri Kəngərli sülaləsinin sonuncu generalı Cəmşid xan Naxçıvanskinin (10 avqust 1895, Naxçıvan, İrəvan quberniyası - 26 avqust 1938, Moskva) doğum günüdür.*

*Türk qoşunları Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakını daşnak, ermənilərdən ibarət olan və ingilislərə arxalanan "Sentrokaspi Diktaturası" qüvvələrindən təmizləyəndə Cəmşid Naxçıvanski Azərbaycanın müstəqilliyi uğrunda inamla vuruşmuşdur.*



*Azərbaycan Xalq Cümhuriyyətininnaziri, artileriya generalı Səmədbəy Mehmandarovun 24 mart 1920-ci il tarixli əmri ilə I süvari tatar alayının komandiri polkovnik-leytenant Cəmşid Naxçıvanski II Qarabağ süvari alayının komandiri təyin edilmişdir.*

*1920-ci ilin martında onun Qarabağda (Şuşada) yerləşən alayı daşnaklara və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdi.*

*C.Naxçıvanski 1923 və 1928-ci illərdə Moskvada qısa müddətli Frunze Adına Ali Hərbi Akademiya kurslarında oxumuş, Azərbaycana qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur. 1933-cü ildə akademiyanı fərqlənmə diplomu ilə bitirdikdən sonra orada müəllim saxlanılmış, 3 il ümumi taktika kafedrasına rəhbərlik etmiş, akademiyada əsas fakültənin kurs rəisi olmuşdur.*

*C.Naxçıvanski 20 may 1938-ci ildə antisovet təşkilatın işində iştirakda günahlandırılaraq üçüncü dəfə həbs edildi. 26 avqust 1938-ci ildə Lefortova zindanında SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının sədri Vasili Vasilyeviç Ulrixin sədrliyi ilə keçirilən səyyar məhkəmə iclasında o, Sovet hökumətinin devrilməsi məqsədilə sui-qəsddə iştirakda və casusluqda günahkar hesab edildi. O, əmlakı müsadirə edilməklə güllələnmə cəzasına məhkum edildi və elə həmin gün də güllələndi.*

*Heydər Əliyevin təşəbbüsü ilə 19 aprel 1971-ci ildə yaradılmış Hərbi liseyə onun adı verilmişdir.*

ədalət.-2020.-11 avqust.- S.-2..